# 860 Gender-əsaslı zorakılıqla bağlı Dəstək Xəttinə 2022-ci il ərzində daxil olan müraciətlərin təhlili

**Zənglər bir neçə meyara əsasən təhlil edilir. Bu meyarlara zəng edənin kimliyi, yaşı, cinsi, ailə vəziyyəti, təhsili, məşğulluğu, zorakılığın növü, yaşadığı bölgə, eləcə də yönləndirildiyi tərəfdaş qurum daxildir.**

**2022-ci il ərzində qəbul edilən zənglərin təhlilinə əsasən müəyyən edilmişdir:**

1. **Bu müddət ərzində ümumi 269 zəngdən 231-i qadın, 38-i isə kişilər tərəfindən olmuşdur.**

2. **Ümumi zəng edənlərin əksəriyyəti 18-35 yaş arasıdır. 269 nəfərin 119-dü 19-35 yaş, 93-ü 36-55 yaş, 22-i 56 yaşdan yuxarı, 35-i isə 0-18 yaş aralığına aid olmuşdur. 38 zəng edən kişidən 13-ü 19-35 yaş, 15-ı 36-55 yaş, 56 yaşdan yuxarı isə zəng edən yoxdur, 10-u 0-18 yaş aralığına aid olmuşdur. 231 zəng edən qadından 106-ı 19-35 yaş, 78-u 36-55 yaş, 22-i 56 yaşdan yuxarı, 25-I 0-18 yaş aralığına aid olmuşdur.**

3. **Ailə vəziyyətlərini təhlil edərkən məlum olmuşdur ki, zəng edənlər arasında evli olanlar çoxluq təşkil edir. Onlar arasında 162 nəfər evli, 76 nəfər subay, 31 nəfər isə boşanan olmuşdur.**

4. **Təhsil səviyyəsinin meyarına görə orta təhsilli olanların üstünlük təşkil etdiyi məlum olmuşdur. 171 nəfər orta təhsilli, 81 nəfər ali təhsilli, 17 nəfər isə təhsilsiz olmuşdur.**

5. **Zəng edənlərin əksəriyyəti işsizdir. Bunlardan 203 nəfər işsiz, 66 nəfər işi olan şəxslərdir.**

6. **Zəng edənlərin əksəriyyəti psixoloji, iqtisadi, fiziki, cinsi zorakılıq növləri arasından psixoloji (246) və fiziki (124) zorakılığa məruz qalanlar olmuşdur.**

7. **Zənglərin əksəriyyəti Bakıdan olmuşdur.169 nəfər Bakıdan, 100 nəfər isə digər bölgələrdəndir.**

**Həmçinin zəng edənlərin əksəriyyəti məişət zorakılığından əziyyətçəkən və vətəndaş mövqeyi göstərən şəxslərdir.**